# İqtisadi uğur formulu



***Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz son 18 ildə sürətli inkişaf yolu keçib. Azərbaycanda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra önəmli layihələr reallaşdırılıb. Bütün bunların nəticəsində iqtisadiyyat 3 dəfədən çox artıb. Ölkə iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya yatırılıb. İndiyədək isə ölkədə verilən 513 investisiya təşviqi sənədi üzrə layihələrin ümumi dəyəri 4,6 milyard manat təşkil edib ki, bu da əsasən regionlarda həyata keçirilən layihələrin payına düşüb.***

Bu il ölkədə iqtisadi artımın bərpası və sürətlənməsində pandemiya ilə bağlı hökumətin iqtisadiyyata genişmiqyaslı dəstək proqramlarının həyata keçirilməsi mühüm rol oynayıb. Bu məqsədlə noyabrın 1-dək 243 mindən çox muzdlu işçiyə 250 milyon manatadək vəsait ödənib, 108 minədək fərdi (mikro) sahibkara 113 milyon manatdan çox maliyyə dəstəyi göstərilib. Məhz bunun nəticəsidir ki, cari ilin doqquz ayı ərzində ÜDM 4,8 faiz artıb. Əgər 2017-2020-ci illərdə qeyri-neft sənayesində əlavə dəyərin orta illik artım tempi 9,3 faiz təşkil edirdisə, bu ilin yanvar-sentyabr aylarında qeyri-neft sənayesində əlavə dəyər 20 faizdən çox yüksəlib.

Onu da qeyd edək ki, ötən il 3 faizdən çox azalan qlobal ÜDM-in bu il ərzində 5,9 faiz artacağı proqnozlaşdırılır. Azərbaycanda rəqəmsal transformasiyanın, Qarabağ və Şərqi Zəngəzurda “yaşıl iqtisadiyyat”ın inkişaf prioriteti kimi seçilməsi nəticəsində respublikamızın xeyli üstünlük qazanacağı gözlənilir.

Cari ilin 10 ayında vergi daxilolmaları da 16 faizədək artaraq 7,4 milyard manata çatıb, proqnoz 122 faiz səviyyəsində icra olunub, proqnozdan əlavə dövlət büdcəsinə 1,3 milyard manatdan çox vəsait daxil olub. Qeyri-neft sektoru üzrə vergi daxilolmaları isə 13 faizədək artaraq 5,4 milyard manata çatıb, proqnoz 116 faiz səviyyəsində icra olunub. Sektordan daxilolmalar ümumi daxilolmaların 73 faizini ötüb.

Azərbaycanın strateji valyuta ehtiyatlarının həcmi bu ilin noyabr ayının əvvəlinə kimi, 53 milyard ABŞ dollarını ötüb ki, bu da proqnozlaşdırılan illik ÜDM-in təqribən 110 faizinə ekvivalentdir. Cari ilin 10 ayında qeyri-neft ixracının həcmində 42 faizlik artım müşahidə olunub ki, bu da ən yüksək tarixi göstəricidir. Bütövlükdə 2021-ci il üzrə qeyri-neft ixracının həcminin 2,4 milyard ABŞ dollarından yüksək olacağı gözlənilir.

Ümumiyyətlə, son beş ildə (2016-2020-ci illər) Azərbaycanın strateji valyuta ehtiyatları 12,8 milyard ABŞ dolları və ya 34,5 faiz artıb. Bu barədə Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) 2020-ci il üzrə hesabatında bildirilir ki, 2016-cı ildə ölkənin strateji valyuta ehtiyatları 37,1 milyard dollar təşkil edirdisə, 2020-ci ildə onların həcmi 49,9 milyard dollaradək yüksəlib.

Qeyd edək ki, ölkənin strateji valyuta ehtiyatları Azərbaycan Mərkəzi Bankının rəsmi valyuta ehtiyatları və Neft Fondunun aktivlərinin məcmusudur.

Hesabata əsasən, 2016-2020-ci illər ərzində ARDNF-nin aktivləri 33,2 milyard dollardan 43,6 milyard dollaradək yüksəlib (10,4 milyard dollar və ya 31,3 faiz artıb).

Hesabat dövründə Mərkəzi Bankın valyuta ehtiyatlarının kəskin artımı da müşahidə olunur. Belə ki, 2016-2020-ci illər ərzində AMB-nin valyuta ehtiyatları 4 milyard dollardan 6,4 milyard dollaradək artıb (2,4 milyard dollar və ya 60 faiz artıb).

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda son illərdə qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra önəmli layihələr icra olunub.

Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, hazırda Azərbaycanda bu proseslər uğurla davam edir. Bütün bunlar isə ölkəmizə xarici investisiya qoyuluşuna müsbət zəmin yaradır, həmçinin ixrac potensialını gücləndirir.

Reallaşdırılan tədbirlərin nəticəsidir ki, bu ilin yanvar-sentyabr ayları ərzində qeyri-neft sənayesi məhsulları ixracı 1,6 dəfə yüksəlib, bu sahədə ən yüksək göstəriciyə- 41 faizədək artıma nail olunub.

Doqquz ayda sənaye məhsulları ixracının 320 milyon dolları sənaye zonalarının payına düşüb. Yeri gəlmişkən, indiyədək sənaye zonalarında 5 milyard manatdan çox məhsul istehsal edilib. Bunun 1,4 milyard manatlıq hissəsi və ya təxminən 28 faizi isə ixrac olunub.

Hazırda mənfur düşmənin uzun illər ərzində viran qoyduğu yurdlarımıza yeni nəfəs verilir, avtomobil və dəmir yolları çəkilir, elektrik, qaz, su təchizatı və kənd təsərrüfatı infrastrukturları qurulur, tarixi, mədəni, dini irsimiz bərpa olunur, beynəlxalq hava limanları tikilir. Böyük qayıdışın təmin edilməsi, işğaldan azad olunmuş ərazilərimizin bərpa və yenidənqurma işləri ilə ölkə iqtisadiyyatına reinteqrasiyası, bununla əlaqədar dövlətimizin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, milli təhlükəsizliyinin gücləndirilməsi məsələsi Azərbaycan Prezidentinin ölkəmizin 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair cari ilin fevral ayında müəyyənləşdirdiyi 5 illik inkişaf prioritetlərindən biridir.

***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 15 dekabr.- S.6.